No: 02 2025
https://doi.org/10.64400/ndueej.047
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# MÜASIR CƏMİYYƏTLƏRDƏ VƏTƏNDAŞ CƏMİYYƏTİNİN FORMALAŞMASI VƏ İQTİSADİ İNKİŞAFIN QARŞILIQLI ƏLAQƏSİ

**Mehriban Babaxanova**

https://orcid.org/0009-0004-9298-0815
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan.
Yazışılan müəllif: mehribanbabakhan@adu.edu.az ; Tel +994503630090

## XÜLASƏ

Müasir dünya təcrübəsi göstərir ki, iqtisadi rifah və demokratik inkişaf arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Son iki əsrin təcrübəsi sübut edir ki, sərbəst bazar iqtisadiyyatına əsaslanan ölkələr daha firavan yaşayırlar. Demokratik ölkələrdə mövcud olan vətəndaş cəmiyyəti mühiti elmi-texniki tərəqqi üçün daha əlverişli şərait yaradır, məhkəmələrin müstəqilliyini və mülkiyyət hüquqlarının qorunmasını təmin edir. Bundan əlavə, demokratik cəmiyyətlərdə informasiya mübadiləsi daha effektiv aparılır və iqtisadi proseslərə siyasi müdaxilə azalır. Məqalədə həmçinin qeyd olunur ki, bazar iqtisadiyyatı əmlak bərabərsizliyi yaradır, bu isə siyasi bərabərliyin təmin olunmasını çətinləşdirə bilər. Lakin, vətəndaş cəmiyyətinin verdiyi geniş hüquq və azadlıqlar, müstəqil şəxsi inkişaf və siyasi bərabərlik bu çatışmazlıqları kompensasiya edir.

**Açar sözlər:** *vətəndaş cəmiyyəti, konstitusion hüquqlar, bazar iqtisadiyyatı, demokratiya, iqtisadi inkişaf, siyasi bərabərlik*

## GİRİŞ

Cəmiyyət və dövlətlərin inkişaf tarixi təsdiq edir ki, son 200 il ərzində bazar iqtisadiyyatı digər iqtisadiyyat formalarının hər hansı birindən qat-qat çox firavanlıq gətirib. Beləliklə, qədim bir müdrik kəlamı başqa şəkildə ifadə etməklə söyləməkdə haqlı olaraq: bir halda ki, inkişaf etmiş bütün ölkələr bazar iqtisadiyyatına malik olan ölkələrdir, bazar iqtisadiyyatına malik olan ölkələr bir qayda olaraq, firavan yaşayır, deməli, müasir inkişaf etmiş ölkə - varlı ölkədir. Göründüyü kimi, kəlam formal məntiqin sillogizminə tam uyğundur.

Vətəndaş cəmiyyəti ideyasından doğan mənaya görə, demokratik quruluşa malik olan ölkələrin qeyri-demokratik sistemlərlə müqayisədə adətən, digər iqtisadi üstünlükləri də olur. Vətəndaş cəmiyyəti ideyası ilk növbədə mövcud olduğu olduğu ölkədə elə bir mühit formalaşdırır ki, bu mühitdə dövlət öz vətəndaşlarının təhsilə olan meylini həvəsləndirir, bilikli fərdlər isə elmi-texniki tərəqqiyə və deməli, sosial-iqtisadi və mədəni yüksəlişə kömək edir. Bundan savayı, vətəndaş cəmiyyəti ideyasından faydalanan demokratik ölkələrdə dövlətin qanunlarına daha çox riayət olunur, məhkəmələr daha müstəqil fəaliyyət göstərir, vətəndaşların mülkiyyət hüquqları daha müdafiə və mühafizə olunur, müqavilə öhdəlikləri qeyd-şərtsiz yerinə yetirilir. Ən başlıca olanlardan biri isə budur ki, iqtisadi proseslərə hökumətin və ya özbaşına hərəkət edə biləcək siyasətçilərin müdaxiləsi inandırıcı görünmür. Nəhayət, müasir iqtisadiyyatın yüksək səmərəliliyi bir çox cəhətdən informasiya mübadiləsindən asılıdır, demokratik əsaslara söykənən cəmiyyətlərdə isə, kommunikasiya "sədləri" qat - qat aşağıdır. İnformasiyanı axtarmaq və vermək, informasiya mübadiləsi aparmaq qeyri-demokratik cəmiyyətlərin əksəriyyətində olduğundan asan və xeyli təhlükəsizdir.

Nəticədə, ümumi qaydadan bəzi istsnalara baxmayaraq, müasir demokratik cəmiyyətlərdə sərbəst bazar iqtisadiyyatının üstünlüklərindən yararlanmaq və iqtisadi artıma nail olmaq üçün daha əlverişli şərait yaradılır. Vətəndaş fəallığı da öz növbəsində buna təkan verir. Bununla da iqtisadi artımla vətəndaş fəallığının qarşılıqlı vəhdəti yaranır.

Qeyd etmək zəruridir ki, müasir demokratik sistem və sərbəst bazar iqtisadiyyatı arasında mövcud olan qarşılıqlı əlaqə hər ikisinə eyni dərəcədə üstünlük versə də, bazar iqtisadiyyatı vətəndaş cəmiyyəti üçün xeyli baha başa gəlir. Çünki o, əmlak bərabərsizliyi yaradır, bu isə ona gətirib çıxara bilər ki, demokratik dövlətin bütün vətəndaşlarının tam siyasi bərabərliyinin dərqərar olması çətinləşir.

Vətəndaş cəmiyyəti ideyasından irəli gələn bir tələb də vardır: hər hansı sosial-iqtisadi və siyasi quruluşa həddən artıq yüksək tələblərlə yanaşmaq düzgün, yaxud ədalətli hesab oluna bilməz. Heç bir yüksək inkişaf səviyyəli cəmiyyət və onun mövcud olduğu mühit təminat verə bilməz ki, onun bütün vətəndaşları xoşbəxt, varlı, sağlam, sülhsevər, qanunsevər və vətənpərvər olacaqlar. Bu dəyərlərin (məqsədli nemətlərin) tam əldə edilməsi istənilən hökumətin, o cümlədən vətəndaş cəmiyyəti ideyasının bərqərar olacağına möhkəm əmin olan hökumətin imkanları xaricindədir. Üstəlik, təcrübə göstərir ki, tam həcmdə bərqərar olmuş vətəndaş cəmiyyəti öz ideyalarından çox uzaqdır. Müasir vətəndaş ideyasının doğurduğu bəşəri dəyərlərin əvvəlki fərziyyələri kimi, müasir vətəndaş ideyasının da hələ nəzərə çarpan xeyli qüsurları vardır. Bununla yanaşı, biz cəmiyyətin xoşbəxt quruluşunun digər formaları ilə müqaisədə vətəndaş cəmiyyətinin üstünlüklərini unutmamalıyıq. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

- vətəndaş cəmiyyəti qəddar və müstəbidi dövlət hakimiyyətinə yiyələnməyə imkan vermir, ona hər cür vəhclə mane olmağa çalışır;
- vətəndaş cəmiyyəti özünün bütün sağlam düşüncəli üzvləri üçün qeyri-demokratik sistemlərin vermədiyi (verə bilmədiyi, yaxud vermək istəmədiyi) və ya heç vaxt verə bilməyəcəyi hüquq və azdlıqlara təminat verir;
- vətəndaş cəmiyyəti öz üzvləri üçün digər hər hansı siaysi sistemin verə biləcəyindən daha geniş şəxsi azadlıqlar təmin edir;
- vətəndaş cəmiyyəti insanlara öz təməlli mənafe və maraqlarını müdafiə etmək imkanı verir;
- yalnız vətəndaş cəmiyyətinin sarsılmaz dəyərlərinə qayğı ilə yanaşan demokratik hakimiyyət şəxsiyyətə öz müqəddəratını təyin etməsi, yəni onun özünün seçdiyi qanunlar üzrə yaşaması üçün maksimum şərait yaradır;
- yalnız vətəndaş cəmiyyətinin mənəvi və maddi sərvətlərinə sonsuz qayğı ilə yanaşan demokratik hakimiyyət mənəvi məsuliyyətin üzə çıxması üçün maksimum imkanlar açır;
- vətəndaş cəmiyyəti şəxsiyyətin formalaşması və inkişafını istənilən digər cəmiyyətlərdən daha çox stimullaşdırır;
- yalnız vətəndaş cəmiyyəti ideyasının dönməz ideallarından güc alan demokratik hakimiyyət siyasi bərabərliyin nisbətən yüksək səviyyəsini təmin etməyə qadirdir;
- vətəndaş cəmiyyətinin yüksək ideallarından faydalanan müasir cəmiyyətlər bir-biri ilə silahlı münaqişəyə girmirlər;
- vətəndaş cəmiyyəti ideyasının ən müasir müddəalarını lazımınca qiymətləndirən demokratik dövlətlər qeyri-demokratik dövlətlərlə müqayisədə firavanlığa daha çox meyllidir.

Göstərilən bütün bu üstünlükləri nəzərə almaqla, insanların böyük əksəriyyəti üçün vətəndaş cəmiyyəti özünün alternativi olan istənilən cəmiyyətlə müqayisədə daha münasib və əlverişli variantdır.

Vətəndaş cəmiyyəti ideyası özündə siyasi bərabərliyin ən optimal nümunələri ehtiva edir. Bəzi tədqiqatçıların mülahizəsinə görə siyasi bərabərlik vətəndaş cəmiyyəti ideyasına tarixən xas olan başlıca müddəa olmuşdur. [6,63]

Vətəndaş cəmiyyəti ideyasında özünə möhkəm yer etmiş siyasi bərabərlik öz həqiqi reallığını yalnız bu cəmiyyətdə tapa bilər.[5,45] Siyasi bərabərlik vətəndaş cəmiyyəti ideyasında olduğu qədər digər sosial ideyalarda özünü parlaq əks etdirməmişdir. [1, 91] Vətəndaş cəmiyyəti ideyasının bətnindən doğan bu bərabərliyi, fikrimizcə, siyasi hüquq bərabərliyi də adlandırmaq olar. Çünki siyasi hüquq bərabərliyi anadangəlmə bərabərlikdir və insanın təbii hüquqları sistemində mərkəzi yeri tutur.

1776-cı ildə Amerika Birləşmiş Ştatlarının "İstiqlal Bəyannaməsi"nin yaradıcılarının söylədiyi sözlər bütün dünyada əks-səda doğurdu: "Biz belə bir həqiqəti tam aşkar hesab edirik ki, bütün insanlar anadan bərabər doğulur və bu zaman Tanrı onlara müəyyən ayrılmaz hüquqlar bəxş edir ki, bunların

içərisində yaşamaq, azadlıq və xoşbəxtliyə çatmaq hüququ da vardır". Deməli, hüquq bərabərliyi aşkar həqiqətdir və vətəndaş cəmiyyəti ideyasını irəli sürən filosof-mütəfəkkirlər bu həqiqətin mahiyyətini dərindən dərk etmişlər. Əgər belədirsə, bunun üçün xüsusi heç bir sübuta və ya izaha ehtiyac yoxdur.

ABŞ-ın "İstiqlaliyyət Bəyannaməsi" ndə də belə sübut və izahlar yoxdur. Tanrının kişi ilə qadını da bərabərhüquqlu varlıqlar kimi yaratmasını sübut etməyə ehtiyyac qalmır. Həm maraqlı, həm də bir qədər təəcüblüdür ki, bərabərliyi bütün planet sakinlərinin diqqətinə çatdıran Amerika ziyalılarının XVIII əsrdə yaşamış nümayəndələri "kişi ilə qadın hüquqca bərabərdir" ifadəsini ABŞ-n 1787-ci il Konstitusiyasında təsbit etməmişlər. Yəgin ki, buna heç bir ehtiyacın olmadığını dərindən anlamışlar və fikrimizcə, belə hesab etmişlər ki, Tanrının verdiyi bərabərliyi rəsmiləşdirməyə heç bir lüzum yoxdur. Allahın Yazısı bütün yazılardan yüksəkdə durur və beyinlərə əbədi həkk olur.

Tədqiqatçılar "İstiqlal Bəyannaməsi"ndəki bərabərlik tezisini dönə-dönə tənqid edərək göstərirdilər ki, bunlar gəlişi gözəl sözlərdən, boş ritorikadan başqa bir şey deyil. Onların fikrincə, əgər bu müddəada insanların cəmiyyətdəki faktiki vəziyyəti təsvir edilirsə, o halda bu, ağ yalandır. [4,134]

Bu qəbildən olan ittihamlara bzən "riyakarlıq etmə" adlı ittiham da deyilirdi. Buna misal olaraq göstərilir ki, Bəyannamənin müəllifləri xoşagəlməz bir faktın üzərindən sükutla keçməyi üstün tutmuşlar. Həmin dövrdə özünü müstəqil demokratik dövlət elan etmiş yeni ölkədə vətəndaşların böyük əksəriyyəti toxunulmaz və özgəninkiləşdirilə bilməyən hüquqlardan faydalanmaq imkanından məhrum edilmişdilər. O vaxtlar və çox-çox illər sonra da qadınlar, kölələr, azad zəncilər, qitənin yerli sakinləri-hindular nəinki siyasi hüquqlardan, hətta ən adi bəşəri hüquqlardan məhrum idilər. Bəyannamənin əsas müəllifi Tomas Ceffersonun özü qul saxlayırdı. Azad əhalinin böyük bir hissəsi seçki hüququndan məhrum idi. XIX əsrdə yeni təşkil edilmiş ştatlarda səsvermə hüququ əmlak senzi ilə məhdudlaşdırılmışdı.

1776-cı ildə qeyri-bərabərliyin bəzi formaları aradan çıxsa da, onların bir çoxu qalmaqda davam edirdi. Zira, onu da nəzərə almaq lazımdır ki, qeyri-bərabərlik bəşər nəslinin təbiətinə xas olan ilkin xassələrdən biridir.

T.Cefferson bəşəri münasibətlərin incəliklərinə bələd idi və o, belə bir aşkar faktı görməyə bilməzdi ki, bir çox mühüm sahələrdə insanın qabiliyyət və imkanları, istedadı heç də fitri olmur. Hüquq ədəbiyyatında qeyd olunur ki, T.Cefferson təbii hüquq doktrinasını ən radikal və demokratik təfsirdə qəbul etmişdi. Bu cəhətdən onun siyasi-hüquqi görüşləri J.-J. Russonun ideyalarına çox yaxın idi. T.Ceffersonun təbii hüquq doktrinası onun ictimai müqavilə haqqında təsəvvürləri ilə bağlı idi. Mütəfəkkirin ideyasına görə məhz ictimai müqavilə cəmiyyət quruculuğunun əsasını təşkil edir. Azad və bərabərhüquqlu fermerlərin demokratik respublikası onun siyasi idealı idi. Bu, utopik ideal idi, lakin onun Cefferson tərəfindən fəal təbliği geniş xalq kütlələrinin istiqlaliyyət uğrunda mübarizəyə cəlb edilməsində böyük rol oynamışdı. [3, s.308-309]

Deməli, amerikalı mütəfəkkir, onun barəsində yuxarıda deyilənlərlə yanaşı müsbət mövqeyi ilə də fərqlənmişdir. T. Cefferson üçün qaşılmaz bir həqiqət mövcud idi: bütün insanlar bərabər yaranmışdır. Onlar bəzi ayrılmaz hüquqlara – yaşamaq, azadlıq və xoşbəxtliyə nail olmaq hüququna malikdirlər. Bəyannamənin müəllifi bu ideyalarında həmişə ardıcıl olmuşdur.

Vətəndaş cəmiyyəti ideyasına uyğun olaraq dövlət hakimiyyətinin ümumi rifah prinsipinə bütün varlığı ilə sadiq olan mütəxəssislərə (Platon belə mütəxəssisləri "keşikçi" adlandırırdı) verilməsi tələbi tarix boyu demokratiya ideyasının güclü rəqiblərindən biri olub. Bu ideyanın müdafiəçiləri demokratiyaya onun ən zəif həlqəsindən hücum edir, yəni sadə insanların öz-özlərini idarə etmək qabiliyyətini tanımaq istəmirlər. Lakin məlum bir həqiqəti unudurlar ki, vətəndaş cəmiyyəti öz mahiyyəti etibarilə sadə insanlar tərəfindən idarə edilən və bunun üçün insan əməyini, zəhmətini son dərəcə yüksək qiymətləndirən cəmiyyətdir. Belə cəmiyyəti olan dövlət həmişə qalib hesab olunur.

Belə bir cəhəti nəzərə almaq lazımdır ki, vətəndaş cəmiyyəti ideyası yazılmamış ideyalar vəsiləsinə daxildir. Onu mütləq deyil, fikrimizcə, nisbi ideya kimi səciyyələndirmək daha məqsədəuyğun olardı. Vətəndaş cəmiyyəti ideyası öz tarixi rüşeymləri ilə təbii-hüquqi ideyaların məzmun və mahiyyətindən irəli gəlmişdir. Məhz yazılı formaya malik olmadığına görə, vətəndaş cəmiyyəti ideyasına yanaşmalar da müxtəlifdir. Bunula belə, vətəndaş cəmiyyəti ideyası yazılı formaya malik olmadığı gədər də özünəməxsus müdrikliyə, kamilliyə və digər əxlaqi fəzilətlərə malikdir. Görünür, vətəndaş cəmiyyəti ideyası bu xassəsini təbii hüquqdan əxz etmişdir.

Məsələn, fransız filosofu, təbii hüquq və insan hüquqları problemlərinin görkəmli təfsirçilərindən biri Jak Mariten (1882-1973) təsdiq edirdi ki, təbii hüquq nə amerikan, nə də fransız inqilablarının kəşfi deyil. Müasir hüquqşünas-pozitivistlərin müxtəlif dərəcələrinə mənsub olan mühafizəkarlar belə hesab edirlər. Çünki onlar təbii hüquq ideyasına yanlış ideya kimi yanaşır, müxtəlif cinahlardan onun üzərinə hücum edirlər. Təbii hüquq ideyasının kökləri Siserona və stoiklərə qədər gedib çıxır. [2,647]

Beləliklə, mənşə etibarilə təbii hüquq ideyasının törəmə olan vətəndaş cəmiyyəti ideyası öz təbiətinə görə yazılmamış ideyadır. Lakin eyni zamanda müdrikliyi ilə seçilən, əxlaqi fəzilətləri ilə digər ideyalardan fərqlənən mənəvi dəyərdir.

Bir mühüm cəhəti də qeyd etmək zəruridir ki, vətəndaş cəmiyyəti ideyası bütün dünyada həm alimlərin, tədqiqatçıların və müxtəlif peşə sahiblərinin, həm də sadə insanların dəstəyini qazanmışdır. Bu ideya uğrunda mübarizə aparmaq da eyni rəğbətlə qarşılanmışdır. Yəni insanların sağlam düşüncəsinə görə, vətəndaş cəmiyyəti uğrunda, hətta əbədi mübarizə aparmaq hər bir fərdin şəxsi ləyaqət hissinə çevrilmişdir.

Bu, heç də təsadüfi, yaxud ötəri mövqe deyil. Onun müxtəlif səbəbləri vardır və məhz həmin səbəblərin aradan qaldırılması, yaxud bu səbəbləri törədən mürtəce qüvvələrin zəiflədilməsi asan məsələ deyil. Buna görə də vətəndaş cəmiyyəti uğrunda mübarizə öz mahiyyəti etibarilə, əslində şovinist və təxribatçı qüvvələrlə, müxtəlif milli hərəkatlar pərdəsi altında dünyanın ayrı-ayrı regionlarında hər cür silahlı münaqişələr törədən, silahlanmaya rəvac verən və milyonlarla günahsız insanın ölümünə səbəb olan mütəşəkkil cinayətkar təşkilatlarla mübarizə kimi təzahür edir.

Vətəndaş cəmiyyəti ideyası haqqında danışarkən ilk növbədə bu ideyanın keçdiyi tarixi yolun uzun olduğunu nəzərə almaqla belə bir nəticəyə gəlmək olar ki, bilavasitə vətəndaş cəmiyyətinin özü barəsində tam mənada cavab vermək çətindir. Tarixi materialların öyrənilməsi aşaöıdakı yekun nəticələrə gətrib çıxarır:

- vətəndaş cəmiyyəti özünün yayılması miqyasına görə genişəhatəlidir;
- vətəndaş cəmiyyəti öz barəsində təşəkkül tapmış ideya və müddəaların diffuziyaya uğramasına borcludur;
- diffuziyanın bilavasitə özü də vətəndaş cəmiyyəti fenomeninin tam izahını verə bilməz.

Yuxarıdakı nəticənin ümumiləşdirilmiş cavabı bundan ibarət ola bilər ki, müəyyən məkanda və müəyyən zamanda vətəndaş cəmiyyətinin bərqərar olması üçün əlverişli tarixi şərait yetişməlidir. Bu çərçivəyə müvafiq cəmiyyət-dövlətin sosial-iqtisadi, siyasi, hüquqi və mədəni səviyyəsi də daxil edilməlidir. Əlbəttə, bu prosesdə hər hansı ölkənin və müəyyən sivil cəmiyyətin zəruri sferalarda beynəlxalq əlaqələri də istisnalıq təşkil edə bilməz. Nəhayət, vətəndaş cəmiyyətinin bərqərar olması üçün tarixi zəminlərin və müqəddəm şərtlərin olması da vacibdir.

Fikrimizcə, vətəndaş cəmiyyəti, bunun üçün zəminlərin və şərtlərin mövcud olduğu məkanda və zamanda hər dəfə yenidən kəşf olunan fenomeni xatırlada bilər. Dünya dövlətlərinin inkişaf səviyyəsi eyni olmadığı kimi, vətəndaş cəmiyyəti də hər bir dövlətin, sivil cəmiyyətin öz istəklərinə uyğun formalaşdırıla bilər. Bu, qaçılmaz həqiqətdir və dövlətlərin bilavasitə özünün təşəkkül prosesləri də bunu təsdiq edir.

Vacib olan amillərdən biri ondan ibarətdir ki, müasir dövrün reallıqlarına qayıtmaq üçün bu gün bütün Şərqi və Şəqri- Mərkəzi Avropada baş verənləri bir daha yada salmaq, müəyyən görüntü və mənzərələri yaxından müşahidə etmək lazımdır. Bu nöqteyi nəzərdən Şərqi və Şəqri-Mərkəzi Avropa dövlətlərinin etnik xüsusiyyətləri aradan götürməyə qadir olan ümumbəşəri vətəndaşlıq prinsiplərini tam təsis etmək bacarığından hələ nə qədər uzaq olduğunu dərk etməkdən ötrü sadalanan bu hadisələrə - Yuqoslaviya və keçmiş Sovet İttifaqında baş vermiş etnik münaqişələrə, əslində isə, müharibələrə diqqət yetirmək lazımdır.

Müharibə hər bir halda od-alov, ölüm-itimdir. O, insanlığa faciə və fəlakətlərdən savayı heç nə vermir. Zaman keçdikcə müharibələr öz "təkamül" prossesində ifray səviyyyə çatmışdır. Bu elə bir səviyyədir ki, onun ən uca zirvəsindən belə, vətəndaş cəmiyyətinə apara bilən üfüqlər görünmür. Bu cəhətdən vətəndaş cəmiyyətinə apar yollar İkinci Dünya müharibəsinin (1939-1945) necə keçilməz sədlər çəkdiyini qeyd etmək kifayətdir. Tarix şəhadət verir ki, odlu silah kəşf edildiyi vaxtdan bəşəriyyət heç vaxt belə dəhşətli müharibənin şahidi olmamışdır.

İri şəhərləri, saysız hesabsız kənd və qəsəbələri viranəyə çevirən müharibə, hər şeydən əvvəl, insan cəmiyyətinin düşmənidir. Cəmiyyətin hansı inkişaf mərhələsində olub-olmamasından asılı olmayaraq, müharibə onun ruhunu şikəst edir, iradəsini sındırır və tərəqqi yollarını bağlayır. Bu da öz növbəsində bütün insanlığın inkişaf yollarının qarşısını kəsməkdir. Ona görə də müharibələrə qarşı çıxmaq, eyni zamanda bütün bəşəriyyətin xoşbəxt gələcəyinə səs vermək deməkdir.

Müasir ictimai həyatın gedişi təsdiq edir ki, insanlığın işıqlı gələcəyi üçün silahlı münaqişə və toqquşmalar, millətlərarası çarpışmalar və dünyanın müxtəlif regionlarında ayrı-ayrı səbəblərdən törədilən vətəndaş müharibələri deyil, sərbəst bazar iqtisadiyyatı daha münasib və zərurirdir. Vətəndaş cəmiyyəti ideyasının doğurduğu məntiqi nəticələrdən biri budur ki, vətəndaş cəmiyyəti və sərbəst bazar iqtisadi münasibətləri bir-birini tamamlayan amillərdir. Bunları bir-birindən təcrid olunmuş halda təsəvvür etmək mümkün deyil.

Başqa sözlə, vətəndaş cəmiyyəti və sərbəst bazar iqtisadiyyatı eyni kökə malik olan ağacın qoşa budağını özündə ehtiva edir. Həmin budaqları bir-birindən ayırmaq çətindir və əslində, ayırmaq olmaz. Çünki onlardan biri insan cəmiyyətini tərəqqinin ən yüksək zirvəsinə qaldırır, digəri isə cəmiyyətin məhz həmin zirvədə qalaraq möhkəmlənməsi üçün sosial-iqtisadi zəmin yaradır. Bunun da nəticəsində iki sosial fenomenin - hüququn və qanunun qarşılıqlı vəhdəti təşəkkül tapır. Əgər hüquq cəmiyyətin hər bir üzvünün azadlıqlarının reallaşmasına şərait yaradır və təkan verirsə, qanun mövcud münasibətlərin reallaşmasında tarazlıq qoruyub saxlayır. Əgər hüquq dövlət-cəmiyyətdə qüvvədə olan qanunların gerçəkləşməsinin ideologiyalaşdırılmış vasitəsi qismində çıxış edirsə və qanunlara əməl edilməsində müəyyən tənzimləyici rolunu oynayırsa, qanun hüququn maddiləşmiş forması olmaq etibarilə ictimai münasibətlərin qorunması və möhkəmləndirilməsinin başlıca qoruyucusuna çevrilir.

Beləliklə, məqalədə verilmiş təhlilləri yekunlaşdıraraq bu nəticəyə gəlmək olar ki, vətəndaş cəmiyyəti ideyası tarixən təşəkkül tapan, cəmiyyətin inkişaf mərhələlərinə uyğun hər bir müvafiq dövrdə özünəməxsus yeni məzmun əldə edən və cəmiyyətin inkişaf təlabatlarına uyğun şəkildə müəyyən dəyişikliklərə məruz qalan ideya kimi formalaşmışdır.

Vətəndaş cəmiyyəti haqqında ideyalar birdən-birə və öz-özünə, yaxud kor-koranə şəkildə deyil, insan zəkasının və dərin intellektinin yüksək dəyərə malik mənəvi şərtlərindən biri kimi təşəkkül tapmışlar. Həmin ideyalar yüzillikləri, hətta minillikləri adlayaraq döbvrümüzədək cilalana-cilalana gəlib çatmışdır. İdrak prosesinin mühüm dəyərə malik mənəvi məhsulu olan həmin ideyaları yaradanlar, şübhəsiz ki, özünün qeyri-adi istedadı və biliyi ilə seçilən mütəvəkkir insanlar olmuşdur.

## ƏDƏBİYYAT


1. Васильев Л. С. Проблемы генезиса политической мысли. М., Наука, 1999, 209
2. Графский В.Г. история политических и правовых учений. Учебник. М., Норма, 2011, 736
3. История политических и правовых учений/ Отв. ред. Щ.Э.Лэйст. М., «Зерцало», 2006, 568
4. История США: в 4-х томах. Т.1/1607-1877/ М., Наука, 1983, 688
5. Мартин Дж. Все возможные миры. М., Прогресс, 1998, 342
6. Целлер Э. Очерк истории греческой философии. М., «Канон», 1996, 336


## SUMMARY

### THE INTERRELATIONSHIP BETWEEN THE FORMATION OF CIVIL SOCIETY AND ECONOMIC DEVELOPMENT IN MODERN SOCIETY


**Mehriban Babakhanova**



Modern world experience shows that there is a close connection between economic prosperity and democratic development. The experience of the last two centuries proves that countries based on a market economy live more prosperously. The civil society environment existing in democratic countries creates more favorable conditions for scientific and technological progress, ensures the independence of the courts and the protection of property rights. In addition, in democratic societies, the exchange of

information is more effective, and political interference in economic processes is reduced. The article also notes that a market economy gives rise to wealth inequality, which can make it difficult to achieve political equality. However, broad rights and freedoms, independent development of the individual and political equality provided by civil society compensate for these shortcomings.
**Keywords:** *civil society, market economy, constitucional rights, democracy, economic development, political equality.*

## РЕЗЮМЕ
## ВЗАИМОСВЯЗЬ ФОРМИРОВАНИЯ ГРАЖДАНСКОГО ОБЩЕСТВА И ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ В СОВРЕМЕННОМ ОБЩЕСТВЕ

**Мехрибан Бабаханова**

Современный мировой опыт показывает, что между экономическим процветанием и демократическим развитием существует тесная связь. Опыт последних двух столетий доказывает, что страны, основанные на рыночной экономике, живут более благополучно. Существующая в демократических странах среда гражданского общества создает более благоприятные условия для научно-технического прогресса, обеспечивает независимость судов и защиту прав собственности. Кроме того, в демократических обществах обмен информацией более эффективен, а политическое вмешательство в экономические процессы снижается. В статье также отмечается, что рыночная экономика порождает имущественное неравенство, что может затруднить достижение политического равенства. Однако широкие права и свободы, независимое развитие личности и политическое равенство, обеспечиваемые гражданским обществом, компенсируют эти недостатки.
**Ключевые слова**: *гражданское общество, конституционные права, рыночная экономика, демократия, экономическое развитие, политическое равенство*